# ƏVHƏDİ MARAĞALININ "CAMİ-CƏM" POEMASINDA ÖVLAD TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

**Solmaz Cabbarova,**
*Naxçıvan Dövlət Universiteti*
E-mail: scabbarli@yahoo.com

**Rəyçilər:** *ped.e.dok., prof.* O.Q. Həsənli,
*ped.ü.fəls.dok.* K. Camalov

***Açar sözlər:*** *ailə, tərbiyə, valideyn, övlad, nümunə, peşə öyrətmək*
***Key words:*** *family education, parenting, child, example, vocational training*
***Ключевые слова:*** *семья, воспитание, родитель, ребенок, пример, научить профессии*

Əvhədi Marağalı XIII-XIV əsrdə Azərbaycan pedaqoji fikrinin inkişafında əhəmiyyətli xidmət göstərən və pedaqogika tarixinə öz adını tərbiyə müğənnisi kimi həkk edən şəxsiyyətlərdən biridir. O, Azərbaycanın ən mühüm mərkəzlərindən biri olan Marağa şəhərində o qədər də yoxsul olmayan, ortabab ailədə doğulmuşdur. Burada böyüyüb təhsil almış, şair kimi yetişmişdir. Bilik və səadət arzusu ilə Şərqin bir çox şəhərlərini gəzmişdir. 20 ildən çox İsfahanda yaşamışdır. 59 yaşında ikən Marağa şəhərinə qayıtmış və 1333-cü ildə burada ensiklopedik səciyyə daşıyan məşhur "Cami-cəm" ("Cəmşidin camı") poemasını yazmışdır. 1338-ci ildə 64 yaşlı şair Marağada vəfat etmişdir. Qəbri Marağada indi də Pir Əvhədinin adı ilə məşhurdur.

Əvhədi yaradıcılığında "Cami-cəm" poeması mühüm yer tutur. "Cami-cəm" Əvhədinin 64 illik həyat təcrübəsinin, 40 illik yaradıcılıq axtarışlarının yekunu, bir növ şairin gələcək nəsillərə vəsiyyətidir. Onun poeması həm bir çox məsələləri əhatə etməsi, həm də onların əks etdirmə üsulunun orijinallığı ilə fərqlənir və diqqəti cəlb edir. "Cami-cəm" hər şeydən əvvəl elmə, biliyə, ağıla himn kimi səslənir.

*Bu uzaq göylərin sirlərini biz,*
*Dərk edə bilmərik yəqin elmsiz.*
*Elm ilə sularda üzər gəmilər,*
*Həm elmin gücü ilə gəmi düzələr.*
*Elm ilə dost olsan bu dünyada sən,*
*Sudan gəmisiz də keçə bilərsən* [1, 47].

"Cami-cəm" poeması əxlaqi-siyasi, fəlsəfi-etik, pedaqoji əsər kimi də çox qiymətlidir. Əhvədi ailə tərbiyəsinə dair fikirlərini bu əsərin "İnsanın doğumundan sonra ömrünün axırına qədərki macəraları", "Övlad tərbiyəsi haqqında", "Hekayət", "Tərbiyənin təsiri və özbaşına boy atmağın nəticəsi", "Övladı natəmizlərin şərindən qorumaq haqqında", "Nəsihət etməyin qaydaları" və s. başlıqlar altında qeyd etmişdir.

Əvhədi Marağalı bütün ata-analara məsləhət görür ki, onlar uşaqlarının tərbiyəsini hər hansı bir tərbiyəçiyə tapşırsalar da, öz valideynlik vəzifələrini yerinə yetirməli, övladlarını daim nəzarətdə saxlamalı, öyüd-nəsihətlərini, nümunəvi davranışlarını əsirgəməməlidirlər. Əvhədi ata-anaların əsas vəzifəsini övladlarını tərbiyələndirməkdə, yaxşı bir qadınla evləndirməkdə, onlara yaşamaq üçün ev tikdirməkdə görürdü. Bunu onun "Övladı natəmizlərdən qorumaq" başlığı altında verilmiş şeirinin misralarında aydın görmək olar.

*Özün əkdiyinə, ey ata, inan,*
*Yaxşı olar özün olasan bağban.*
*Lazımsa bağçanı, evi gözləmək,*
*Yaddan eşşək başı yaxşıdır, gerçək.*
*Sən öyüd ver ona başında nə var,*
*Axı qalan odur səndən yadigar.*
*Bağda budaq sınsa qəm çəkməz baxan,*
*Onun hər dərdini, bil, çəkər bağban.*
*Vermə öz nəqdini kimsəyə, aman.*
*Axırda olarsan yoxsa peşiman* [1, 129].

Valideyn nümunəsini övlad tərbiyəsi işində ən vacib üsullardan biri hesab edən Əvhədi

"Övlad tərbiyəsi" adlı şeirində atanın övladına nümunəsindən asılı olaraq oğlunun bir şəxsiyyət kimi formalaşdığını, atasının davranışını təqlid edərək, öyüd-nəsihətlərindən bəhrələnərək böyüdüyünü vurğulamışdır.

*Ey ata, bir utan öz övladından,*
*Pisi rəva görmə ona heç zaman.*
*Oğluna pis deyib söymə dünyada,*
*Onda söyüş söyən* olacaq o da.
*Abır, həya gözlə söz danışanda,*
*O da həya edər, utanar onda.* [1, 111]

Əvhədi ailədə əmək tərbiyəsinə xüsusi fikir verilməsinin, uşaqların kiçik yaşlardan əmək vərdişlərinə alışdırmasının və onlarda əməyi sevmək, əmək adamlarına hörmət etmək kimi vacib keyfiyyətlərin formalaşdırmasının tərəfdarı idi. Əmək vərdişlərinin formalaşdırılması işi uşaq üçün əziyyətli olsa da valideynlər əsla vaz keçməməli, onu gələcək həyatın çətinliklərinə hazırlamalıdırlar.

*Nazla böyüməsin qoy çox da övlad,*
*Onu iş-gücdən də eyləmə azad.*
*Sonra çətinliyə düşərsə əgər,*
*Bu möhnət, bədbəxtlik onu məhv edər.*
*İş öyrət ki, sənə bəndəlik etsin,*
*İncit, başıaşağı işinə getsin* [1, 112].

Əvhədi Marağalı düzgün tərbiyə ilə yanaşı övladlarına yaxşı peşə verməyi və düzgün peşə seçiminə istiqamətləndirməyi də valideynlərin əsas vəzifələrindən sayır, bu işə daha diqqətli yanaşılmasını tələb edirdi. Onun fikrincə, səhv peşə seçimi uşaqları bədbəxtliyə sürükləyə bilər.

Yazıçı "Hekayət" [1, 112] adlı başlıqda övladına düzgün peşə öyrətməyən atanın peşmançılığından bəhs etmişdir. Bu hekayədə ata oğluna yaraq alır və aslanı necə öldürəcəyi barədə məsləhətlər verir. Bundan həvəslənən oğlu aslan ovlamaq üçün meşəyə gedir, ancaq aslana gücü çatmadığına görə özü yaralanır. Bu hadisəni eşidən ata ağlaya-ağlaya meşəyə qaçır. Oğlunun qan içərisində, ölüm ayağında olduğunu görüb ah-fəğan edir. Bunu görən oğlu günahın onda olduğunu, ona düzgün peşə öyrətmədiyinə görə bu hala düşdüyünü deyir.

Əvhədi başqa bir misrada isə ataya oğluna ilkin olaraq yaxşı ilə pisi ayırmağı, ikinci olaraq yaxşı peşə öyrətməyi, üçüncü olaraq isə onu mal-mülklə təmin edib evləndirməyi məsləhət bilmişdi və bunu belə qələmə almışdı.

*İndisə ilk borcun, vəzifən budur,*
*Gəl ağla-qaranı qatıb qovuşdur.*
*İkinci, sən ona öyrət bir peşə,*
*O, maaş götürsün ordan həmişə.*
*Üçüncü, mal ilə kömək et ona,*
*Bir halal qız ilə toy et oğluna* [1, 112-113].

Əvhədi yalnız valideynlərin deyil, ailənin digər üzvlərinin, tərbiyəçilərin, xidmətçilərin, dayələrin də uşaqların yaxşı tərbiyə olunmasında rolunun vacibliyindən bəhs etmişdir. Uşaqlara isə öz növbələrində onlara hörmət göstərmələrini təklif etmişdir.

Əvhədi "Cami-cəm" pedaqoji əsəri ilə yalnız öz dövründə deyil, XV-XVI əsrlərdə fəaliyyət göstərən bir sıra şəxsiyyətlərə də örnək olmuşdur. "Cami-cəm" əsəri hələ öz dövründə əlbəəl gəzərək İran, İstanbul, Ərəbistan, Hindistan, Misir və s. Şərq ölkələrində olduğu kimi, Qərbi Avropa ölkələrində də tərcümə edilərək oxunmuşdur.

**Problemin aktuallığı.** Azərbaycan pedaqoji fikrinin inkişafında əhəmiyyətli xidməti olan Əvhədi Marağalı dünyada məşhur olan "Cami-cəm " poemasında özünəməxsus ifadə ilə bir sıra məsələlərin həlli üçün öz düşüncə və nəsihətlərini qələmə almışdır. Yazıçının əsərlərində yer alan, günümüzdə də aktual və həll olunması vacib sayılan fikirlər mövcuddur.

**Problemin yeniliyi.** Əvhədi Marağalı "Cami-cəm" poemasında bir çox məsələlərlə yanaşı övlad tərbiyəsi məsələlərinə də geniş yer ayırmışdır. O, poemasını 1333-cü ildə qələmə almasına baxmayaraq əsərdə yer alan məsələlər günümüz üçün öz vacibliyini və yeniliyini qoruyub saxlamışdır. Onun fikirlərinin öyrənilməsi və nəsihətlərindən övlad tərbiyəsi məsələlərində istifadə edilməsi əhəmiyyətlidir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən fikirlər, mühakimələr yetişən nəslin tərbiyəsi üçün vacibdir. Onun əsərində ailədə övlad tərbiyəsi, valideynlərin uşaqlara sevgi ilə yanaşması, uşaqların böyüklərə hörmət və ehtiram göstərməsinin vacibliyi, müəyyən bir peşəyə yiyələnməyin əhəmiyyəti və peşə seçimində valideynlərin nümunəsi çox aydın və yüksək səviyyədə qələmə alınmışdır. Məqalədə Əhvədinin qiymətli nəsihət və fikirlərindən günümüzdə yerində istifadə etməklə, uşaqların ailədə tərbiyəsi işində valideynlərə yol göstərilməsi, tərbiyə məsələlərində tətbiqi ön planda durur.

## ƏDƏBİYYAT

1. Marağalı Əvhədi . Cami-cəm. Bakı: Lider, 2004.
2. Mollayev İ. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim və tərbiyə haqqında. Naxçıvan: Əcəmi, 2016.

**S.R. Jabbarova**

## ISSUES OF CHILD UPBRINGING IN THE POEM "JAMI-JAM" BY AVHADI MARAGALI

***SUMMARY***

The poem "Jami-jam" by Avhadi Maragali, which has come to this day with its valuable works and insights, deals with the issues of upbringing of children.

In the work, Avhadi Maragha advices all parents to care for their children, even if they let their children to be trained by any caregiver. He recommends them to fulfil their duty of parental authority, to keep their children under control, and not to neglect their admonitions and exemplary behavior. The article also mentions parents' involvement in their children's professional choice and directing them to make them a right choice and the importance of the profession they choose in their future lives.

**С.Р. Джаббарова**

## ВОПРОСЫ ВОСПИТАНИЯ РЕБЕНКА В ПОЭМЕ «ДЖАМИ-ДЖЕМ» АХВАДИ МАРАГАЛЫ

***РЕЗЮМЕ***

В статье рассматривается проблема воспитания ребенка в поэме «Джами-джем» Ахвади Марагалы, дошедшего до наших дней своими ценными мыслями и наставлениями в области воспитания.

В указанном произведении Ахвади Марагалы наставляет всех родителей с ответственностью относиться к своим родительским обязанностям, держать своих детей под постоянным родительским контролем, не жалеть от них своих наставлений и образцовых поведений, хотя воспитание своих детей иногда поручают какому-либо воспитателю.

Автор статьи обосновывает мысль, что наставления родителей целенаправленно способствуют верному направлению детей в избирании ими профессии и познании значения избранной профессии.

**Redaksiyaya daxil olub: 04.12.2017**